*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 565-572*

https://doi.org/10.62837/2025.10. 565

**TAMELLA QULIYEVA**
Sumqayıt Dövlət Universiteti
tamellaquliyeva800@gmail.com

# M. FÜZULİNİN "RİNDÜ-ZAHİD" ƏSƏRİNDƏ KATARSİZM

**Xülasə**

M. Füzulinin fars dilində qələmə aldığı "Rindü-Zahid" əsərinin əsas ideyası ondan ibarətdir ki, elm və idrakdan uzaq, yalnız riyakar ibadət üzərində qurulan həyat insana həqiqi dəyər qazandırmır. Həqiqi kamillik elm, hikmət və mənəvi saflaşma yolu ilə əldə olunur.

Əsərdə Rind və Zahid obrazları qarşılaşdırılır və bu obrazlar vasitəsilə gənc və yaşlı insanın dünyagörüşü, həyat tərzi və elmi bilikləri mənimsəmə xüsusiyyətləri müqayisə edilir. Rind obrazı gənc və azad fikirli bir şəxsi təmsil edir, Zahid obrazı isə yaşlı, təcrübəli və hikmət sahibi insandır. Zahid dini qaydalara zahiri surətdə əməl edən, özünü guya ibadətə həsr etmiş, lakin daxilən cahil, dar düşüncəli, riyakarlığa meylli bir surət kimi təsvir olunur. Rind isə həyatın mənasını, insan varlığının dəyərini, elm və təfəkkürün gücünü daha düzgün anlayan, mənəvi azadlığı ön planda tutan müdrik şəxsdir. Füzuli bu əsərində göstərir ki, insan yalnız zahiri ibadətlə deyil, elm, idrak və hikmətlə kamilləşə bilər. Zahidin sərt, mühafizəkar mövqeyi onun dünyanı dərk etməsinə mane olur. Rind isə elmə açıqlığı, həyatsevərliyi və səmimiyyəti ilə üstün surət kimi təqdim edilir.

Əsərdə eyni zamanda əxlaqi dəyərlərə, zəhmətə, bilik və bacarıq əldə etməyə böyük önəm verilir. Rind və Zahid obrazları vasitəsilə şair göstərir ki, həyatın hər mərhələsində insan öz üstünlüklərini dərk etməli, bacarıq və biliyini inkişaf etdirməlidir. Əsər həm pedaqoji, həm də fəlsəfi səciyyəyə malikdir.

**Açar sözlər :** Rind, Zahid, elm, riyakar, tərbiyə

**Əsas hissə:**

Orta əsrlər Azərbaycan ədəbiyyatında ana dilində yazıb-yaradan görkəmli sənətkarlardan biri də Məhəmməd Füzulidir. Özünəqədərki Yaxın və Orta Şərq xalqlarının müxtəlif dillərdə yaratdığı zəngin mədəniyyəti diqqətlə öyrənən sənətkar zəngin və çoxcəhətli bir irs yaratmışdır. Azərbaycan, fars və ərəb dillərində Şərq şeirinin müxtəlif şəkillərində əlçatmaz bədii xüsusiyyətlərə malik əsərlər yaradan Füzuli, hər şeydən əvvəl, dərin humanizmi ilə seçilir. M.Füzuli Azərbaycan ədəbiyyatının inkişafında əsaslı yer tutan, Şərq xalqları ədəbiyyatına güclü təsir göstərən, zəngin ədəbi irsə malik olan mütəfəkkir kimi orta əsrlər ədəbiyyatımızda ana dilində yaranan şeirin, lirik poeziyanın ən böyük yaradıcılarından biri olmuşdur.

Füzulinin əsərləri həyata, insana dərin məhəbbətin ifadəsidir. Bu əsərlər Azərbaycan xalqının əvəzolunmaz mənəvi sərvətidir. Şairin əsərlərində xalqın nəcib qəlbi, müqəddəs arzuları əks olunmuşdur. O, öz bədii yaradıcılığı ilə gənc nəslin tərbiyəsində əsaslı xidmət göstərmişdir. Füzuli lirikasının əsl qüvvət və qüdrət mənbəyi xalqdır, həyatdır. Onun lirikası çoxcəhətli, zəngin yaradıcılığında əsas, həlledici yer tutur. Füzulinin lirikasında insan, onun əzəmətli və parlaq camalı təbiətdə olan bütün varlıqlardan üstün, qiymətli göstərilir. Şair öz əsərlərində bədii sözün qüdrəti ilə bir-birindən gözəl, cazibəli, əlvan surətlər yaratmışdır.

"M. Füzulinin fars dilində qələmə aldığı "Rindü Zahid" əsəri Yaxın Şərq ədəbiyyatı tarixində mükalimə tərzində yazılmış böyük bir hekayədir." [ Məhəmməd, F, 2005, s5] Füzulinin bu əsəri yeniyetmə və gənclərin peşə seçimi, elm və təhsil sahəsində inkişaf etməsini, eyni zamanda düzgün tərbiyə alması məsələlərini ön plana çəkir. Ən qədim dövrlərdən başlayaraq bugünkü dövrdə də cəmiyyət qarşısında duran əsas vəzifələrdən biri gənclərin elm, savad qazanması, tərbiyə olunması, gələcəyinin müəyyən edilməsidir. "Rindü-Zahid" əsəri də bu məsələyə həsr edilmişdir. M. Füzulinin əsərində diqqəti cəlb edən mühüm cəhətlərdən biri odur ki, şair tərbiyə məsələlərini ön plana çəkərkən dövrün ictimai eybəcərliklərini, sadə insanların ağır şəraitdə yaşamasını, dövlət məmurlarının vəzifədən sui-istifadə edərək sərvət toplamasını və xalqın soyulmasını ustalıqla ifşa edir. Əsərdə elmlə irfan, alimlə arif, ağılla qəlb, mədrəsə ilə təkkə qarşılaşdırılır. Əsər ata ilə oğul arasındakı dialoq əsasında qurulmuşdur. Burada ata ilə oğul arasında gedən müsahibə zamanı dövrün ictimai, siyasi, əxlaqi məsələləri mülahizə edilir. Ata Zahid, oğul isə Rind adlanır. Zahid və Rind arasında gedən mübahisələr vasitəsilə insanın mənəvi inkişafı, həyatın mənası və daxili aləmin təzahürləri müzakirə edilir. Füzuli, bu əsərdə insanın daxili aləmini və mənəvi inkişafını ön plana çıxarır. Bu adlar təsadüfi seçilməmiş, rəmzi məna daşıyır. Zahid mühafizəkar, riyakarlığa meyilli, Rind isə onun əksinə həyatı, musiqi və gözəllikləri sevən, ağıllı, yaşına görə geniş dünyagörüşünə sahib bir şəxsiyyətdir. Müxtəlif düşüncələrdə olan Rind və Zahid öz aralarında dövrün bir sıra məsələlərini müzakirə edib mühakimələr yürüdürlər. Zahid öz təcrübələrindən çıxış edərək bir ata kimi övladına öz təsəvvürlərinə əsasən nəsihətlər verməyə çalışır. Lakin Rind bu nəsihətləri qəbul etmir, müxtəlif elm sahələrindən aparılan söhbətlərdə atası ilə razılaşmır. "Əsərin məzmunundan aydın olur ki, həyatın hər bir üzünə bələd olan ata oğluna sübut etməyə çalışır ki, həyatın əsas mənası əməkdə və zəhmətdədir." [M.A. Quliyeva, 2008, s212] Əmək verməkdən boyun qaçıran, tənbəllik edən insan həyatda xoşbəxt ola bilməz. İnsan çalışaraq rütbəyə çata bilər.

Əsər bütövlükdə dialoq formasında, nəsrlə yazılmış irihəcmli bir hekayədir. Hər bir mükalimənin nəticəsi kiçikhəcmli şeirlə yekunlaşır. "Əsər başdan-başa Qurani-Kərimdən gətirilən surələr və ayələrlə müşayiət olunur." [Gülşən, Ə, 2024] Bu, XVI əsr üçün bir üstünlük idi və əsərdə ifadə olunan fikirlərin təsirini daha da

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 565-572*

möhkəmləndirirdi. Maraqlıdır ki, Füzuli əsərdə bir çox məsələlərə toxunsa da qəti bir fikir söyləmir, məsələlər haqqında yalnız danışmaqla kifayətlənərək nəticə çıxarmağı oxucunun öhdəsinə buraxır.

Şair əsərdəki tərbiyəvi söhbətlər üzərindən özünəməxsus tərzdə insanın mənəvi kamillik mərhələsi yolundan təmizlənməsi barədə söz açır. Burda mənəvi təmizlənmə - Qədim yunan filosofu Aristotelsayağı katarsis kimi də diqqəti cəlb edir. Təmizlənmə bəzən insan ruhunun şərdən və şər fikirlərdən azad edilməsi kimi başa düşülür. İnsanın daxili gərginliyinə son qoyaraq rahatlamasına və şüuraltı emosiyaları üzə çıxarmasına imkan verir. İnsanın daxilindəki basdırılmış duyğular üzə çıxaraq azad edilir. Buda insana bütün gərginliyi aradan qaldırmağa və emosional rahatlıq əldə etməsinə imkan verir.

Bildiyimiz kimi, yunan mütəfəkkiri Aristotel "Poetika" əsərində ilk dəfə bu termindən bəhs etmişdir. Aristotelin faciəviliklə bağlı təliminin əsasını bilavasitə katarsis təşkil edir. Filosofa görə katarsis, faciə izləyicisinin mərhəmət və qorxu hisslərini yaşayaraq bu hisslərdən xilas olmasıdır. Faciədə insan hadisələrin öz başına gəldiyini düşünərək o hisslərdən təmizlənir. Həmçinin Platon özünün "Cümhuriyyət" əsərində də bu termindən bəhs edir.

"Aristotelə görə, musiqi və nəğməli şeirlərin təsiri altında psixika və duyğular güclü affektlərlə oyadılır." [ O. İ. Панфилова ] Katarsis təsiri xüsusilə faciə janrına xas olan "təqlid" vasitəsilə insanın daxilindəki emosiyaların bənzər affektlərlə oyadılmasından ibarətdir.

M. Füzulinin "Rindü-Zahid" əsərində də Rindin və Zahidin mükaliməsi oxucunu düşündürür.

İnsan bir ömür boyu bir neçə dildə danışır. Ömrünün hər anı ona dünyanı fərqli bir pəncərədən göstərir. Bu əsərdə də Rind və Zahidin təcrübəsi, keçdiyi həyat yolları onların danışığında öz əksini tapır. Zahid dünya təcrübəsini əks etdirir və dünyanın dili ilə danışır. Valideynlərimiz bizimlə dünyanın, keçmişin dili ilə, biz isə onlarla gələcəyin dili ilə danışırıq. Nəticədə onlar hələ olmayan gələcəyin xəyalından bizi qorumağa çalışırlar. "Rind yaşamadığı keçmişə qurban getmək istəmir, Zahid inanmadığı gələcəyə." [ Hüseyn, F, 2022]

"İlahi, sən məni məğrur zahid etmə!
Səndən uzaq olan bir rind də etmə!
Elə et ki, yoxluqda ikən bir ad çıxarım,
Məni rindlik və zahidliklə məşhur etmə!" [Məhəmməd, F, 2005, s 11]

Əsərin əvvəlində verilmiş bu rübaidə Füzuli, zahidlik və rindlik anlayışları arasındakı ziddiyyəti ön plana çıxarır və onların mənəvi mahiyyətini sorğulayır. "Füzuli həm Rinddi, həm də Zahid." [3] O, bir yandan eşqi, şərabı tərifləyir, bir yandan isə insanın mənəvi dərinliyini, Allaha bağlılığını ön plana çıxarır.

Rind ağıllı, müstəqil fikirli, öz yaşına görə geniş dünyagörüşlü bir gəncdir. Atası onun bu müsbət cəhətlərini görür və oğlunun bir sənətə, peşəyə yiyələnməsi vaxtının çatdığını başa düşür. Oğlu ilə bu məsələ haqqında söhbət etməyə başlayır. Əsərin əsas ideya məğzi məhz ata-oğul arasında baş verən bu mükalimələr əsasında açılır. Cəmiyyətdəki çatışmazlıqlar göstərilir.

"Rindü Zahid" əsərində müasir dövr üçün də aktual olan, insan tərbiyəsi və şəxsiyyətinin formalaşması kimi bir sıra məsələlərə toxunulur: gənclərin müstəqil fikir və ideyalarına hörmətlə yanaşmaq və onlara qayğı göstərmək, müəllim əməyinə yüksək qiymət vermək, gənclərin təlim-tərbiyəsində "üçbucaq adlandırılan" müəllim-valideyn-ictimai mühit birliyinin rolunu önə çəkmək.

Rind atasına deyir ki, mən yoxdan yenicə varlıq aləminə gəlmişəm, dünya qayda-qanunlarından xəbərim yoxdur, məni bir elmə yönəlt. Zahid ona təklif edir ki, padşahlara xidmətin qayda-qanunlarını öyrən. Çünki, padşah yanında xidmət etməklə xoşbəxtlik qazanacağını deyir. Rind isə bildirir ki, padşah yanında işləmək həm xalqı soyub-talamaq, həm də çoxlu sərvət sahibi olsa da, daim qorxu və səksəkə içərisində yaşamaqdan başqa bir şey deyil, insan həmişə azad və müstəqil olmalıdır. İrfan rütbəsi axtaranlara bu nəsihəti verməməsini bildirir.

Zahid tövsiyə edir ki, get əkinçiliklə məşğul ol, toxum ək və bununlada həm özünə, həm də başqalarına faydalı olar. Rind isə deyir ki, kim ki, əkinçiliklə məşğul olur o, ömrü boyu məhsulun arzusunu çəkir və beləliklə ömrün azaldığını, ölümün tez yetdiyini deyir. Rində görə belə adamlar ağılsızdır.

Zahid oğluna tapşırır ki, ticarətlə məşğul ol. Rind deyir ki, alver edəndə gərək satacağın məhsula xalqın ehtiyacının artmasını diləyəsən və daim aldığının qiymətini artırasan. Yəni malı həqiqi dəyərindən artığına satasan və özün də o artıqla dolanasan. Alverçinin məqsədi xalqı aldatmaq olduğu üçün daim çox əziyyət çəkir, az rahatlıq görür. Xalqı aldatmaq da insanlığa layiq iş deyil.

Zahid oğluna tövsiyə edir ki, sənətkarlıq öyrən, Rind atasının məsləhətinə cavab olaraq deyir ki, sənətkar bir iş üçün səhərdən axşamacan çalışır. Gecə də gündüzün yorğunluğu ilə yatır. Bu insanın ömrü yalnız yemək və yatmağa sərf olunur. Belə adam dünyadan nə kam ala bilər ki? Belə adamlar üçün həyat mənasız və darıxdırıcıdır. İnsan həyatdan zövq alaraq yaşamalıdır. Ömrünü yalnız yemək və yatmaqla keçirmək ağılsızlıqdır.

Əsərdə Rindin mükalimələri iki əsas məqamı ön plana çıxarır: birincisi, onun dili ilə peşə və sənət seçimində dövrün ictimai eybəcərlikləri göstərilir, ikincisi isə, gəncin seçdiyi peşə öz maraq və meyllərinə uyğun olmadıqda, o, ya müxtəlif bəhanələrlə işdən uzaqlaşacaq, ya da həyatda uğur qazana bilməyəcək.

Zahid öz peşəsini sadəcə şəxsi missiyasını yerinə yetirmək vasitəsi kimi görür. Rind isə bu səbəbdən ona təklif olunan səlahiyyətlərlə dünyaya fayda verə bilməyəcəyini düşünür. Rindin dediklərində həqiqət var. Ancaq bu həqiqət cəmiyyətin və dünyanın yox, fərdlərin həqiqətdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 565-572*

Tədricən Rindin həqiqətləri daha güclü formada özünü göstərir. Zahidin ona irad tutaraq söylədiyi "əziyyətlə səni böyütdüm, amma heç mənə oxşamadın" fikrinə Rind etirazla cavab verir ki, insanlar arasındakı fərq Allahın hökmüdür, O, insanlar arasında fərq qoyub. Əgər alim atanın övladı savadlı olsa, deyəcəklər ki, atasından çox bilir.

Zahid oğluna sual verir ki, nə üçün məni rəhbər tutub mən gedən yolu getmirsən? Rind də deyir ki, mən sənin yolunu getməkdən utanmıram. Amma sənin evində yalnız məhrumiyyət və çətinliklərlə yaşamaq üçün lazım olan şeylər var, başqa heç nə yoxdur. Mənim isə bu qədər çətinliklərə dözməyə gücüm çatmır. Dünya şadlıq və xoşbəxtlik nemətləri ilə doludur, amma sənin evində onların heç biri yoxdur.

Zahid deyir ki, dünya və axirət bir-birinə ziddir, bu dünya əzablar dünyasıdır. Bu dünyada əzab çək ki, axirətdə rahatlıq görəsən. Rind cavab verir ki, hər kim ki, deyir dünya yaradılışdan pisdir, o demək istəyir ki, bundan yaxşısını yaratmaq lazımdır. Bu isə Allahın yaratdıqlarını inkar etmək, onun iradəsinə qarşı çıxmaq deməkdir.

Zahid deyir ki, özünü dünya əziyyətlərinə, zülmə öyrət ki, qəflətən rahatlıq tapanda ona nifrət bəsləyəsən. Rind isə cavabında deyir ki, hər kim ki, dünya ləzzətini görməsə, ondan əl çəkməyi asandır. Zahid deyir ki, əgər ikimizdə Allah məxluquyuqsa birlikdə əziyyət çəkməliyik. Niyə tək mən əziyyət çəkim, sən isə əylənəsən? Rind isə cavabında deyir ki, dünya bəla yeridir, sənə görə bu tələyə düşmüşəm. Dünyada əziyyət və qüssədən başqa birşey yoxdur buna görə də çoxda öyünmə.

Rind atası ilə mübahisə edərkən deyir ki, mən hələ dünya ilə tanış deyiləm, gəl bir neçə qədəm gəzməkdə mənə yoldaşlıq et, mənə bilmədiklərimi öyrət. Beləliklə, onlar şəhərə çıxır, küçə və bazarı dolaşırlar. Rind bilmədiklərini Zahid dən soruşur. Nəhayət, böyük və gözəl bir imarət qarşısına gəlirlər. Rind soruşur ki, bu şərəfli yerin adı nədir? Zahid bildirir ki, bura səfalı sufilərin məbədi, Allahın evidir. İblisin bu evə yolu yoxdur. Sən də buraya gəl, bu tayfanın söhbətlərinə rəğbət et ki, cəhalət qaranlığından qurtarasan. Rind bildirir ki, bura kamil adamların yeridir, kamal öyrənmək məktəbi deyil, ayıbdır ki, mənim küdurət tozum onların səfa səhifəsinə qonsun.

"Əgər bu məclisin əhli fəzl və kamal əhlidirsə,
Niyə bu cəhalətlə ora gedib utanaq?
Əgər hiyləgər, xudpəsənd və şərir adamlardırlarsa,
Nə üçün gedib onların işinə şərik olaq?" [ Məhəmməd, F, 2005, s 42]

Onlar məsciddən uzaqlaşır, gəzə-gəzə gəlib başqa başı göylərə ucalan, gözəl binanın qarşısında dayanırlar. Burada insanlar yeyib-içir, vaxtlarını xoş keçirməyə çalışırlar. Rind buradan xoşu gəldiyini bildirir. Zahid deyir ki, bura şeytan işidir, burdakı sakinlər Allahın düşmənidirlər. Rind soruşur ki, əgər bura şeytan yuvasıdırsa, nə üçün Allah düşmənlərinin yuvasını belə abad edibdir? Uzun mübahisədən sonra Rind atasının razılığı ilə meyxanaya girir. Orada bir qocanı görüb salamlaşırlar. Rind bu qocadan soruşur ki, deyirlər meyxana şeytan işidir, sən nə

deyirsən? Qoca ona bəzi möminlərin hiyləsini, huri-qılman sevdalarını aydınlaşdırır. Rind başa düşür ki, meyxana pak insanların yeridir, onu atasına da danışır, yenidən mübahisə edirlər, nəhayət, Zahid oğlunun fikri ilə razılaşır, məscid və meyxananın birliyini etiraf edir. "Axırda Zahid arif Rindin tənbehi ilə öz işlərinin aynasından riya tozunu sildi, Rind vaqif Zahidin nəsihəti ilə öz surəti-halını tövbə bəzəkləri ilə zinətləndirdi. Hər ikisi müxalifət və ziddiyyətdən əl çəkdilər. Vəhdət dərəcəsinə çatdılar və məhəbbət yolunu tutdular". [Məhəmməd, F, 2005, s 62]

Bütün bunlarla yanaşı, əsərdə müəllim -valideyn birliyinin və ictimai mühitin gənclərin şəxsiyyət kimi formalaşmasındakı rolu da qabardılır.

Bütün dünya alimləri müəllim əməyinə xüsusi hörmət və məhəbbətlə yanaşmış, onların əməyinə böyük qiymət vermişlər. Bu baxımdan M.Füzulinin də fikirləri maraqlıdır. Füzuli müəllimi atadan da müqəddəs hesab edir. Övladın kamilləşməsi üçün müəllimin də rolu böyükdür. Valideyn ancaq övladını yedirməklə, geyindirməklə kifayətlənməməlidir. Valideyin övladına istiqamət verməli, yol göstərməlidir, övladına nümunə olmalıdır. Şair burada valideyninin övladlarının tərbiyəsi ilə məşğul olmağa borclu olduqlarını da göstərir.

"Vay o bəndənin halına ki, adının baqi qalması üçün
Bir ömür zəhmət çəkə, övlad böyüdə,
Övladına gözəl tərbiyə əsər etməyə,
Atasının adını batıra, abrını apara." [ Məhəmməd, F, 2005 s 24]

Əsərdə müəllim-valideyin birliyi ilə bərabər cəmiyyətin rolunun da əhəmiyyətli olduğu göstərilir.

Beləliklə, "Rindü Zahid" yalnız bədii-fəlsəfi bir əsər deyil, həm də pedaqoji və psixoloji baxımdan mühüm mənbədir. Füzuli bu əsəri ilə gənclərin sağlam düşüncəli, elmli, müstəqil və azad fikirli yetişməsinin zəruriliyini göstərmişdir.

**Nəticə:**

"Rindü Zahid" əsəri sübut edir ki, gənc və yaşlı insanın elm öyrənməsi, qavraması, yadda saxlaması və həyatda tətbiq etməsi arasında böyük fərq mövcuddur. İnsan biliyi gənclik çağında daha asan mənimsəyir və onu daha səmərəli şəkildə istifadə edə bilir. Füzuli bu məqamı Rindin dili ilə belə vurğulayır: nə öyrənəcəksənsə, gəncliyində öyrən, çünki bədən zəiflədikdən sonra elm qazanmaq çətinləşir. Müəllif həmçinin bildirir ki, insan uğur əldə etmək üçün qarşısına məqsəd qoymalı və həmin məqsədə çatmaq üçün mübarizə aparmalıdır. Bu yolla arzulanan nailiyyətlərə yetişmək mümkündür. İnsan çalışmasa uğur qazana bilməz. İnsanın şüuru yerində olduğu müddətdə fürsəti itirmədən hünər göstərməsi lazımdır. Beləcə, Füzuli dahiliyi ilə kiçik bir hekayənin çərçivəsində böyük ideyaları əks etdirir və dövrünün ictimai - mənəvi vəziyyəti reallıqla təsvir olunur.

"Rindü-Zahid" əsəri insanı zahiri riyadan, saxta dindarlıqdan uzaqlaşdıraraq, eşq və həqiqət yoluna yönəldir. Füzuli katarsisi burada ikiqat səviyyədə təqdim edir: bir tərəfdən, zahidin yanlış mövqeyini ifşa edərək oxucunu riyakarlıqdan təmizləyir;

digər tərəfdən, rindin eşq fəlsəfəsini önə çəkərək insanın ruhi yüksəlişinə yol açır. Nəticədə "Rindü Zahid" klassik ədəbiyyatda katarsis ideyasının ən canlı təzahürlərindən biri kimi çıxış edir.

## CATHARACISM IN M. FIZULI'S WORK "RINDU-ZAHID"

**GULIYEVA TAMELLA**

**SUMMARY**

The main idea of M. Fuzuli's Persian work "Rindu-Zahid" is that a life built solely on hypocritical worship, detached from knowledge and understanding, does not bring true value to a person. Genuine perfection is attained through learning, wisdom, and spiritual purification. In the work, the characters of the Rind and the Zahid are contrasted, and through them, the worldview, lifestyle, and learning characteristics of a young and an older person are compared. The Rind represents a young and free-minded individual, while the Zahid symbolizes an elderly, experienced, and supposedly wise man. The Zahid is depicted as someone who outwardly follows religious rules and pretends to be devoted to worship, yet is inwardly ignorant, narrow-minded, and inclined toward hypocrisy. The Rind, however, is a wise figure who correctly understands the meaning of life, the value of human existence, and the power of knowledge and thought, placing spiritual freedom above all. Fuzuli shows in this work that a person becomes perfected not through outward worship alone, but through knowledge, intellect, and wisdom. The Zahid's rigid and conservative stance prevents him from truly understanding the world. The Rind, with his openness to knowledge, love of life, and sincerity, is presented as a superior character. The work also emphasizes moral values, hard work, and the importance of acquiring knowledge and skills. Through the figures of the Rind and the Zahid, the poet demonstrates that at every stage of life, a person should recognize their strengths and continuously develop their abilities and knowledge. The work has both pedagogical and philosophical character.

**Keywords: Rind, Zahid, knowledge, hypocrisy, education.**

## КАТАРСИС В ПРОИЗВЕДЕНИИ М. ФИЗУЛИ «РИНДУ-ЗАХИД»

**ГУЛИЕВА ТАМЕЛЛА**

**РЕЗЮМЕ**

Основная идея произведения М. Физули на персидском языке «Ринду-Захид» состоит в том, что жизнь, основанная лишь на лицемерном поклонении и лишённая знаний и познания, не приносит человеку истинной ценности. Подлинное совершенство достигается путём науки, мудрости и духовного

очищения. В произведении сопоставляются образы Ринда и Захида, и через них сравниваются мировоззрение, образ жизни и особенности освоения знаний молодого и пожилого человека. Ринд представляет собой молодого и свободомыслящего человека, тогда как Захид символизирует пожилого, опытного и якобы мудрого человека. Захид изображается как человек, который внешне соблюдает религиозные правила и будто бы посвящает себя поклонению, но внутренне является невежественным, ограниченным и склонным к лицемерию. Ринд же — мудрый человек, правильно понимающий смысл жизни, ценность человеческого бытия, силу знания и мышления, ставящий духовную свободу на первое место. Физули показывает, что человек достигает совершенства не только внешним поклонением, но и знанием, разумом и мудростью. Жёсткая и консервативная позиция Захида мешает ему постичь реальность. Ринд же, благодаря своей открытости к знаниям, жизнелюбию и искренности, предстает как более совершенный образ.

В произведении также подчёркивается важность нравственных ценностей, труда, приобретения знаний и навыков. Через образы Ринда и Захида поэт показывает, что на каждом этапе жизни человек должен осознавать свои сильные стороны и развивать свои способности и знания. Произведение носит как педагогический, так и философский характер.

**Ключевые слова: Ринд, Захид, знание, лицемерие, воспитание.**

## Ədəbiyyat siyahısı:

1.Məhəmməd Füzuli. Əsərləri. Altı Cilddə. I Cild. Bakı, “Şərq-Qərb”, 2005, 400 səh.
2.Məhəmməd Füzuli. Əsərləri (V cild). Bakı: Şərq-Qərb. 2005. 232 səh. https://share.google/84EATICaYWBDNLXIt
3.Füzulinin “Rindü-Zahid” əsəri - Gülşən Əliyeva-Kəngərlinin nəzəri-metodolji yozumu. (2024). https://share.google/5dja99QHJPY1RRljO
4. Fərid Hüseyn. (2022). Həqiqətin himayəçiləri - Məhəmməd Füzulinin “Rindü-Zahid” əsəri haqqında. https://share.google/ybwf7EGJ7Y72lpB9U
5. O. İ. Панфилова Екатеринбург. “К ПРОБЛЕМЕ ХУДОЖЕСТВЕННОГО КАТАРСИСА”.
6. M.A. Quliyeva. (2008). Məhəmməd Füzulinin “Rindü-Zahid” və “Fəzliyə nəsihət” əsərlərində ailə, övlad tərbiyəsi məsələləri. Səh 211-217. https://share. google/ ybwf7EGJ7Y72lpB9U

**Rəyçi: dosent Sevinc Həmzəyeva**